

Rahid Ulusel

# Kapital, yoxsa dəyər dünyası?!

## XXI əsrin aforizmləri

**Yeddinci hissə**

Planet - canlı bir orqanizmdirsə, Türk - onun damarlarında dolanan qandır.

* * *

Türkiyəni bağrıma basıram, görürəm - həmişə sinəsində Azərbaycan döyünür, Azərbaycanı bağrıma basıram, görürəm - həmişə sinəsində Türkiyə döyünür.

* * *

Oturaq xalqlar sümüyü, köçəri xalqlar nəfəsi olub bəşəriyyətin.

* * *

Gülü - Tikan, Mədəniyyəti - Qılınc qoruyur.

* * *

Sivilizasiya - yolları, Mədəniyyət - qəlbləri birləşdirir.

* * *

Sivilizasiyanın başlıca dilemması: Kapital, yoxsa dəyər dünyası?!

* * *

Ulu ideya çəyirdəyində yetişən böyük sənət - subyektiv ruhun, milli ruhun və ümumdünya ruhunun vəhdətindən yaranır.

* * *

Yerüzünün iki həyatyaradıcı başlanğıcı: Torpaq və Kitab. Təbiətin və Mədəniyyətin toxumları bu iki zəmindən göyərib bir-birinə sarmaşır.

* * *

Protaqor: "İnsan - hər şeyin ölçüsüdür."
Mən: "Mədəniyyət - insanın ölçüsüdür."
"Dəyər - mədəniyyətin ölçüsüdür."

* * *

Dünya dillərinin ən ilahisi - torpaqla toxumun danışdığı dil.

* * *

Daim problemlər məngənəsində yaşamaq - sivilizasiya cəngəlliyinin qanunu.

* * *

Bu dünyada heç nəyi etməyin mümkün olmadığı anadək hər şey ediləcək.

* * *

Bu adam bir gündə özünə nə qədər lənət yağdırır: "Allah şeytana lənət eləsin!" - deyə-deyə.

* * *

Materialistin özü ilə haqq-hesabı daha asandır: bütün məsələlər elə bu dünyada bitir onun üçün...

* * *

Cəmiyyətin gözü çəpləşir - çarpaz fikirlərdən imtina edəndə.

* * *

Allahı sevmək əvəzinə ondan qorxaraq yaşamaq - elə bu dünyada cəhənnəm çəkmək deməkdir.

* * *

SÖZ yerə enir - insanı yerdən göyə qaldırmaq üçün!

* * *

Axtardığı suallara cavabdır insan.

* * *

"Müsəlmanın sonrakı ağlı": Bu - yüzillərlə çəkə bilər.

* * *

Toxumlar təbiətdə, ideyalar mədəniyyətdə elə eyni həyatı yaşayır: onlar ikisi də münbit zəmində artıb-çoxalır, bar verir, yararsız zəmində isə ya cırlaşır, əyri bitir, ya da çürüyüb gedirlər.

* * *

Öldürən ilan zəhərinin sağaldan dərman olduğunun dərkindən başlayıb sivilizasiyanın müdrikliyi.

* * *

Dərinliyin, ideālların, doğru məqsədlərin, halal addımların olmadığı yerdə insanlar bir-birinin əlinə, ağzına, hərəkətlərinə baxa-baxa, kütləvi şəkildə - sanki bir axınla yalnız zahiri təmtərağa, görməmişliyə, bəsitliyə, təqlidçiliyə, ortabablığa, sayalaşmağa meyl edirlər.

* * *

Pul - sivilizasiyanın gerbi.

* * *

İnsan və Pul: heç kim onlar qədər bir-biri ilə oynamır.

* * *

Dünya ilə dəllal münasibətlərini kəsmədən onun dəyərlərini dərk etmək və yaratmaq mümkün deyil.

* * *

İnsan naturasının caynaqları hələ dırnaqlara çevrilməyib.

* * *

Azərbaycan klassiki Məhəmməd Füzuli 500 il öncə Bədən ölkəsində Ruhun paytaxt seçdiyi Ürək şəhərini təsvir edir: indi o şəhər ya daxmadır, ya da meqapolis.

* * *

Ehramlar nədir - intihar etmiş sivilizasiyanın gömüldüyü məzarlar?!

* * *

Dil - mədəniyyətin yelkənləridir.

* * *

Mədəniyyət düşüncəsinin ilğımı - Tənqid və İnkar hüdudlarının itirildiyi yerdən başlayır.

* * *

Bütün güllərin ətri sozalıb tükənir, kitabdan gələn mədəniyyətin ətri isə - heç zaman.

* * *

Münasibətlər dərinləşdikcə, yarğanlar yaranmaması üçün gərək yeni körpülər tikəsən.

* * *

Zamanı üyüdüb Tarixə çevirən dəyirman - sivilizasiya.

* * *

İnsan-ağac düşünməlidir ki, onun kökləri torpağın hansı dərinliyinədək işləyəcək.

* * *

Tramplin və sıçrayış: uçuşun uğuru onların bir-birindən qopduğu andakı bağlılığındadır.

* * *

Həqiqət dəvə deyil ki, yüyənindən tutub çəkəsən. Həqiqətin içində olmasan, onu hərəkət etdirə bilməzsən.

* * *

Problemin içindən çıxmaqdan daha çətindir problemi içindən çıxartmaq.

* * *

Dinin suç qəlibinə tökülən insan ərintisi oradan mütləq günahkar çıxır.

* * *

Dünya o qədər daralıb ki, özün özünlə toqquşursan.

* * *

Gələcəyi olmayanlar onu keçmişin qırıq-kəsik epozodlarından montaj edirlər.

* * *

İnsan - ağladıqlarına, əslində, gülməli olduğunu dərk edənədək nə qədər göz yaşını boşuna axıdıb.

* * *

Sivilizasiya məhv olsa, əhliləşmiş heyvanlar yenidən vəhşi təbiətə qayıtmalı olacaqlar: sivilizasiyanın izləri onların ləpirlərində beləcə itib gedəcək...

* * *

İnsan genomunun universalist mahiyyəti dərk edilmədiyindəndir ki, gündüzün qaranlığında, ziddiyyətlər arxipelaqında yaşayanlar fərqliliyi - üstünlüyə, üstünlüyü - hökmranlığa çevirməyin yanğısındadırlar.

* * *

Qəssab və cəllad: birincisinin qaldırıb kötüyə endirdiyi balta Təbiəti diksindirir, ikincisininki - Sivilizasiyanı.

* * *

Dil yox, çox zaman kötək insanlar arasında ünsiyyət vasitəsi olur.

* * *

Özünütəsdiq qazana bilmir Şərq - Qərbin, Qərb - Şərqin inkarında.

* * *

Kitab - bilik, internet - informasiya mənbəyi: "www"-da vurnuxan bapbalaca həşərat Kral-Hörümçəyin əsarətindədir.

* * *

Bədəndəki bütün xəbərləri doğru-dürüst ürəyə çatdırır Qan.

* * *

Mədəniyyət daşıyıcısı olan müstəqil şəxsiyyət sivilizasiyanın yolunu tək də keçər.

* * *

Münasibətlər zəncirlənəndə qırılır.

* * *

Maddi enerjinin mənəvi enerjiyə çevrilmədiyi nə varsa - tükənir.

* * *

Sivilizasiyanı - bəşəriyyət, mədəniyyəti - insanlıq yaradır.

Kaspi 2020.- 13-16 iyun.- S.15.